

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 84 (23.971)

*8 may 2022-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda “Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” mövzusunda konfrans keçirilib

Mayın 7-də Naxçıvan Dövlət Milli Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyi münasibətilə “Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” mövzusunda konfrans keçirilmişdir.

Konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoymuş, Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və konfrans iştirakçıları teatrın foyesində ümummilli liderimiz Heydər Əliyevin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı fotoşəkillərdən ibarət sərgiyə baxmışlar.

Sonra konfrans öz işinə başlamışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” mövzusunda keçirilən konfransın iştirakçılarını salamlayaraq demişdir: Dövlətçiliyin və müstəqilliyin əsas şərtlərindən biri də düşünülmüş və əsaslandırılmış diplomatiyadır. Ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu xarici siyasət strategiyası da Azərbaycanın təhlükəsizliyinin və dövlətçiliyinin etibarlı təminatıdır. Ölkəmizə hər iki rəhbərliyi dövründə ulu öndər bu məsələni diqqətdə saxlamış, Azərbaycanın xarici əlaqələrinə və beynəlxalq münasibətlər sisteminə inteqrasiyasına nail olmuşdur. Ötən əsrin 70-80-ci illərində imperiya tərkibində olmasına baxmayaraq, ümummilli liderin rəhbərliyi ilə Xarici İşlər Nazirliyinin fəaliyyəti yenidən təşkil olunmuş, Azərbaycanın beynəlxalq iqtisadi, mədəni və elmi-texniki əlaqələri genişlənmiş, eyni zamanda keçmiş SSRİ Xarici İşlər Nazirliyi sistemində işləyən azərbaycanlı diplomatların sayı artmışdır. 1990-1993-cü illərdə isə ümummilli lider Naxçıvan Muxtar Respublikasında müstəqil Azərbaycanın xarici siyasət kursunun əsasını qoymuşdur.



“O ölkə güclüdür ki, onun xarici siyasət kursu xalqın milli və siyasi maraqlarına xidmət edir. Əks-təqdirdə dövlətlər siyasi səhnədən silinməyə məhkumdur”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın düşdüyü vəziyyət bu fikri bir daha təsdiq edir. Həmin dövrdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi və düşünülməmiş siyasəti Azərbaycanı beynəlxalq münasibətlər sisteminin subyektindən uzaqlaşdıraraq özünütəcrid vəziyyətinə gətirib çıxarmışdı. Nəticədə, ölkəmizdə sabitlik pozulmuş, iqtisadi tənəzzül sürətlənmiş, torpaqlarımızın 20 faizi işğal olunmuş, Naxçıvan Muxtar Respublikası isə tam blokada vəziyyətinə salınmışdı. Bir sözlə, xarici siyasətdə buraxılan səhvlər Azərbaycanın beynəlxalq aləmdə və regionda təklənməsinə səbəb olmuşdu. Bundan fərqli olaraq ulu öndər Heydər Əliyev blokada və işğal təhlükəsi qarşısında olan Naxçıvanda böyük xilaskarlıq missiyasına başlamışdı. Ümummilli liderin uzaqgörən siyasətinin nəticəsi olaraq Naxçıvanda müstəqilliyin və milli dövlətçiliyin bərpası tədbirləri daxili və xarici siyasət müstəvisində paralel şəkildə aparılmış, 70 ildən sonra üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılmış, muxtar respublikanın adından “Sovet Sosialist” sözləri çıxarılmış, Naxçıvan SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməmiş, digər tərəfdən isə qonşu ölkələrlə münasibətlərə üstünlük verilmiş, Türkiyə və İranla xarici iqtisadi əlaqələr yaradılmışdır. ***“Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri də onun xarici siyasətidir”***, – deyən ulu öndər 1992-ci il martın 24-də Türkiyə Respublikasının Prezidenti və Baş nazirinin dəvəti ilə qardaş ölkəyə rəsmi səfər etmiş, “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu”, həmin il avqustun 24-də isə İran xarici işlər nazirinin dəvəti ilə İran İslam Respublikasına səfər edərək “Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası və İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokol” imzalamışdır. Hər iki səfər və imzalanan sənədlər Azərbaycan-Türkiyə və Azərbaycan-İran münasibətlərinin əsasını qoymuş, Araz çayı üzərində Sədərək, Culfa, Şahtaxtı gömrük-keçid məntəqələri açılmış, enerji və ərzaq böhranının aradan qaldırılması sahəsində tədbirlər görülmüşdür. Bütün bunların nəticəsi olaraq İranın və Türkiyənin Naxçıvan Muxtar Respublikasında konsullluqları fəaliyyətə başlamışdır.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında xarici siyasətlə bağlı qəbul edilən qərarlar sonrakı dövrdə ölkəmizin diplomatik münasibətlər sisteminin mühüm tərkib hissəsinə çevrilmişdir. Ulu öndər 1992-ci il sentyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasındakı çıxışı zamanı bunu belə dəyərləndirirdi: ***“Naxçıvanın İran və Türkiyə ilə əlaqələri Azərbaycanın İran və Türkiyə ilə əlaqələrinin tərkibidir. Bunlar hamısı Azərbaycanın xarici siyasətinin hissələridir”.*** 1990-1993-cü illərdə Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Almaniyanın, Fransanın, Rusiyanın, BMT-nin və digər beynəlxalq təşkilatların səfir və xüsusi nümayəndələri dəfələrlə muxtar respublikaya səfərlər etmişlər. Ulu öndər Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi xarici nümayəndələrlə keçirilən görüşlər zamanı Azərbaycan həqiqətlərini, ölkəmizin üzləşdiyi siyasi və iqtisadi böhranı, xüsusilə də torpaqlarımızın işğal faktını dünya ölkələrinin və beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq məsələyə ədalətli mövqe tələb etmişdir. O dövrdə Naxçıvanın dünyanın böyük dövlətlərinin və mötəbər beynəlxalq təşkilatlarının diqqət mərkəzinə çevrilməsi bir tərəfdən mövcud tarixi-siyasi şəraitlə bağlı idisə, digər əsas səbəb dünya şöhrətli siyasi xadim Heydər Əliyev şəxsiyyətinə göstərilən ehtiramın daha bir ifadəsi idi. Həmin dövrdə Azərbaycana rəhbərlik edənlər isə Naxçıvana biganə münasibətlərini davam etdirir, işğal təhlükəsi və blokada çətinliklərinin aradan qaldırılması istiqamətində heç bir təşəbbüs göstərmir, hakimiyyətə sahiblənən xalq cəbhəsi isə yarıtmaz siyasətinə sadiq qalaraq hətta Naxçıvanın beynəlxalq müqavilələrlə təsbit olunmuş muxtariyyət statusunun ləğvi kimi absurd bəyanatlar səsləndirirdi. Bunun əksinə olaraq ulu öndər Heydər Əliyev isə 1992-ci ildə Türkiyəyə səfəri zamanı beynəlxalq Qars müqaviləsini yenidən gündəmə gətirmiş, iştirakçı dövlətləri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktına münasibət bildirməyə çağırmış, Naxçıvanın muxtariyyət statusunun və ərazisinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququnu bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. Əslində, bu addım təkcə Naxçıvanın muxtariyyət statusunun deyil, bütövlükdə, ölkəmizin ərazi bütövlüyünün qorunması sahəsində həyata keçirilən tədbir kimi böyük siyasi əhəmiyyətə malikdir.

İngilis siyasətçisi və dövlət xadimi Çörçil vaxtilə deyirdi ki, “Dövlət xadiminin siyasətçidən fərqi odur ki, siyasətçi gələcək seçimləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir”. 1990-1993-cü illərdə ulu öndərin Naxçıvanda həyata keçirdiyi tədbirlər də Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı. O dövrdə tətbiq olunan düzgün siyasi xətt Naxçıvanın işğalının qarşısını almış, son dərəcə ağır blokada şəraitində burada yaşayışı və inkişafı təmin etmişdirsə, ölkəyə rəhbərlik edənlərin yarıtmaz daxili və xarici siyasəti isə Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu sual altında qoymuşdu. Türkiyə Respublikasının doqquzuncu Prezidenti, böyük dövlət xadimi mərhum Süleyman Dəmirəl 1992-ci ildə ulu öndərlə görüşü zamanı Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında baş verən hadisələr barədə deyirdi: ***“Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə Ona borcludur. Naxçıvan əhalisi hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük bir iş kimi qiymətləndirirəm. Ümid edirik ki, Azərbaycanda da siyasi sabitlik olacaq”.***

Ali Məclisin Sədri demişdir ki, Azərbaycanda siyasi sabitlik isə ümummilli liderin xalqın tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra mümkün oldu. 1993-2003-cü illərdə ölkə həyatının başqa sahələri kimi, xarici siyasət kursu da tamamilə yenidən işlənildi. İlk növbədə, daxili sabitliyə və vətəndaş həmrəyliyinə nail olundu ki, bu da olmadan xarici siyasətdə uğur qazanmaq mümkün deyildi. Ardınca diplomatik münasibətlərdə əvvəlki hakimiyyətin yarıtmaz özünütəcrid xəttinə son qoyuldu, xarici dövlətlərlə bərabərhüquqlu və ölkəmizin mənafeyinə xidmət edən ikitərəfli əlaqələr yaradıldı, Azərbaycan dünyanın mötəbər beynəlxalq təşkilatlarına üzv seçildi. Qısa müddətdə Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrildi, “Əsrin müqaviləsi”nin imzalanması, tarixi İpək Yolunun bərpası, eləcə də digər strateji nəqliyyat-kommunikasiya layihələri ölkəmizin beynəlxalq nüfuzunu artırdı.



*Ardı 2-ci səhifədə*




Bir məsələ xüsusilə qeyd olunmalıdır ki, ulu öndər Naxçıvan Muxtar Respublikasının həmsərhəd və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasibətlərin genişlənməsinə daim diqqət yetirmiş, 1992-ci il fevralın 24-də qəbul etdiyi Qərara əsasən Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyi təsis edilmişdir. Həmçinin Onun bilavasitə tapşırığı ilə 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq Məntəqəsi fəaliyyətə başlamış, bir il sonra bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaradılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin 2005-ci il 31 oktyabr tarixli Fərmanına əsasən isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi təşkil olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyev "Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti"ndə Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirərək deyirdi: ***"Azərbaycanın xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Azərbaycanın sülhsevər xarici siyasəti, ilk növbədə, onun dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı faydalı, iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir".*** Ümummilli liderimizin əsasını qoyduğu bu yol hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan ikitərəfli və çoxtərəfli formatda beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlıq edir. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə Azərbaycan öz mövqeyini bildirir və mənafelərini qoruyur. Uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfər də ölkəmizin hərbi qüdrəti ilə yanaşı, həm də ümummilli liderimiz Heydər Əliyevin böyük müdrikliklə işləyib hazırladığı və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən xarici siyasət strategiyasının qələbəsidir. Bu qələbənin ən mühüm diplomatik nəticələrindən biri isə 30 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər bölgələri ilə quru əlaqəsinin yaradılması, regionda kommunikasiyaların açılması olacaqdır.

"Ümummilli lider Heydər Əliyev məktəbinin özünəməxsusluğu ondadır ki, o dünən olduğu kimi, bu gün də, gələcəkdə də müstəqil Azərbaycanın əsas siyasi və ideoloji dayağıdır", – deyən Ali Məclisin Sədri çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***"Ölkəmizi bundan sonra da inkişaf etdirmək və qüdrətli dövlətə çevirmək üçün ən başlıcası Azərbaycanda Heydər Əliyev yolu davam etdirilməlidir"*** fikirləri ilə tamamlamış, bu yolda hər kəsə uğurlar arzulamış, "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda keçirilən konfransa mühüm əhəmiyyət verdiyini qeyd etmiş, təşəbbüskarlara və iştirakçılara təşəkkürünü bildirmişdir.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov çıxış edərək demişdir ki, 1993-cü ilin iyun ayında xalqın tələbi ilə hakimiyyətə qayıdan, beləliklə də, müstəqil Azərbaycanın qurucusuna çevrilən Heydər Əliyev şəxsiyyəti nəinki ölkəmizdə siyasi sabitlik və təhlükəsizliyin bərqərar olmasına nail oldu, həmçinin xarici siyasət sahəsində də mühüm addımlar atdı. Azərbaycan xalqının milli maraqlarına əsaslanan xarici siyasət kursunun hazırlanması və aparılması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin hakimiyyətə qayıdışından sonra həmin dövrün mürəkkəbliyi və çətinliyi fonunda ölkəmizin həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə əməkdaşlıq əlaqələrinin qurulması və inkişaf etdirilməsi təmin olundu, o cümlədən enerji resurslarının dünya bazarlarına çıxarılması, nəqliyyat infrastrukturunun inkişafı, xüsusilə keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı işğalçı tərəfə beynəlxalq təzyiqin gücləndirilməsi istiqamətində praqmatik və hərtərəfli xarici siyasət strategiyasının əsası qoyuldu. Sözsüz ki, ulu öndər Heydər Əliyevin xarici siyasət strategiyasının bir nömrəli prioriteti, ulu öndərin Milli Məclisdəki tarixi çıxışında da qeyd etdiyi kimi, ***"Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək, inkişaf etdirmək"*** olmuşdur. Bu yolda dövlətimizin qarşısında duran ən böyük təhdid Ermənistanın Azərbaycana qarşı təcavüz siyasəti və onun ağır nəticələri idi. Ümummilli lider ***"Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geriyə qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır"***, – deyərək keçmiş münaqişənin həllini ən vacib məsələ kimi xarici siyasət gündəliyində müəyyən etmişdi.

Qeyd olunmuşdur ki, dünya birliyinin Azərbaycana münasibətdə mövqeyindəki təkamül özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində qabarıq şəkildə büruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in Ermənistan istisna olmaqla bütün üzv dövlətləri münaqişənin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bu, Azərbaycan xarici siyasətinin böyük uğuru idi. Münaqişənin həlli ilə bağlı aparılan məqsədyönlü siyasət nəticəsində çoxsaylı beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası tərəfindən mühüm qərar və qətnamələr qəbul edildi. Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının ali kürsüsündən, habelə 1995-ci ilin oktyabrında BMT-nin 50 illiyi münasibətilə Baş Assambleyada səsləndirdiyi çıxışlarında Azərbaycandakı mövcud siyasi-iqtisadi vəziyyət ilə yanaşı, dünya birliyinə münasibətdə Azərbaycan siyasətinin prinsiplərini bəyan edib. Azərbaycanın genişlənən, hərtərəfli beynəlxalq əlaqələrinin əsasında ümummilli liderin xarici siyasət konsepsiyasının durduğu şübhəsizdir. Hazırda Azərbaycanın dünyanın müxtəlif ölkələrində səfirlikləri, baş konsulluqları, o cümlədən beynəlxalq təşkilatlar yanında Daimi nümayəndəlikləri aktiv fəaliyyət göstərir. Belə ki, hazırda ölkəmizin dünyanın 77 ölkəsində diplomatik nümayəndəliyi, 21 konsulluğu fəaliyyət göstərir. Həmçinin Azərbaycanda 88 ölkənin və beynəlxalq təşkilatın nümayəndəlikləri, 15 xarici dövlətin konsulluqları akkreditə olunub. 2011-ci ilin oktyabr ayında Azərbaycan tarixində ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. BMT-yə üzv dövlətlərin 155-nin dəstəyi nəticəsində ölkəmizin BMT Təhlükəsizlik Şurasına seçilməsi Azərbaycanın dünyada qazanmış olduğu hörmət və qlobal təhlükəsizliyə töhfəsinin göstəricisi idi. Həmçinin Azərbaycan dünyada BMT-dən sonra ikinci ən böyük siyasi platforma hesab olunan Qoşulmama Hərəkatına sədrlik edir və Qoşulmama Hərəkatına Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərarı sözügedən Hərəkat çərçivəsində Azərbaycana göstərilən etimadın nümunəsidir.

Xarici işlər naziri bildirmişdir ki, ulu öndər Heydər Əliyevin ən böyük arzusu işğal altında olan torpaqlarımızın işğaldan azad olunması idi. Ümummilli lider hər zaman böyük əminliklə torpaqlarımızın azad olunacağını və xalqımızın öz yurd-yuvalarına qayıdacağını bildirirdi. Bu missiya ulu öndər irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yerinə yetirildi. Bu gün üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır, Azərbaycan azad etdiyi ərazilərini qarış-qarış yenidən qurur, bərpa edir. Bütün bu uğurlarımızın əsasında bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən ulu öndər Heydər Əliyevin siyasi kursu dayanır.

Sonra ümummilli lider Heydər Əliyevə həsr edilmiş videoçarx nümayiş olunmuşdur.

Konfrans bədii hissə ilə davam etmiş, Naxçıvan Dövlət Filarmoniyası tərəfindən ulu öndərin sevdiyi və ulu öndərə həsr olunmuş mahnılardan ibarət konsert proqramı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Xələf Xələfov:
## *"Naxçıvan nə qədər möhkəmdirsə, Azərbaycan da o qədər möhkəmdir"*

*Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə keçirilən "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda konfransda iştirak etmək üçün Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəhbər heyəti Naxçıvan Muxtar Respublikasına səfər ediblər. Qonaqlar səfər çərçivəsində Duzdağ Fizioterapiya Mərkəzi, Dövlət Bayrağı Meydanı və Muzeyi, Möminə xatın türbəsi ilə də tanış olublar. Qonaqlar "Şərq qapısı" qəzetinə müsahibəsində səfər təəssüratlarını, Naxçıvanla bağlı fikirlərini bölüşüb.*





*Xələf Xələfov – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini:* – İlk dəfə olaraq belə bir konfrans Naxçıvanda keçirməyi qərara aldıq. Bu, çox həssas mövzudur. Ümummilli liderin xatirəsi hər bir Azərbaycan vətəndaşı, dünya azərbaycanlıları üçün əzizdir. Çünki dahi şəxsiyyət müasir tariximizin yaradıcısıdır, dövlətimizin qurucusudur. Bu gün yaşadığımız həyat görkəmli siyasi xadimin qurub-yaratdığı dövlətçiliyin üzərində bərqərar olunub. Hər bir azərbaycanlı yaxşı dərk edir ki, ulu öndərin Azərbaycan siyasi tarixi üçün nə qədər böyük, misilsiz rolu, xidmətləri vardır. Zaman baxımından dünya şöhrətli siyasətçi Heydər Əliyev bizdən uzaqlaşsa da, mənəviyyat baxımından bizə daha da yaxınlaşır, daha da doğma, əziz olur.

Sual oluna bilər ki, niyə məhz bu konfrans Naxçıvanda keçirildi? Hamımıza məlumdur ki, ümummilli liderimiz Naxçıvanda doğulub, Onun ana Vətənidir Naxçıvan. Bu mənada, xarici işlər naziri Ceyhun Bayramov konfransın Naxçıvanda keçirilməsi təklifini verəndə nazirliyin bütün əməkdaşları bu addımı çox böyük həvəslə qarşıladılar. Bu həm də mənəvi bağlılığı daha da gücləndirməyə xidmət edir. Yaxşı bilirik ki, hər bir millətin öz milli ideologiyası olmalıdır. Bizim milli ideologiyanın yaradıcısı ulu öndər Heydər Əliyevdir. Bu ideologiyanın kökündə Azərbaycançılıq, Azərbaycanın bütövlüyü durur. Bu mənada, Azərbaycanın bütövlüyü üçün Naxçıvan hər zaman simvolik bir rəmz kimi qəbul olunmuşdur. Naxçıvan nə qədər möhkəmdirsə, Azərbaycan da o qədər möhkəmdir. Və bu baxımdan ən çətin dövrlərdə, vaxtilə torpaqlarımız işğal edilən zaman belə, Naxçıvanın duruş gətirməsi də Azərbaycanın duruş gətirməsi demək idi. Naxçıvan 2020-ci ildə 44 günlük müharibədə də ölkəmizin əldə etdiyi qələbənin rəhinlərindən biri kimi qəbul olunmalıdır. Bu diyar ən ağır dövrlər yaşasa da, heç zaman düşmənə boyun əymədi, məğlub olmadı, torpaqlarını qoruyub saxlaya bildi. Bu yurdun qəhrəman insanları bir qarış torpağın belə, ermənilərə güzəştə gedilməsinə imkan vermədilər. Bu, əlbəttə ki, çox böyük göstəricidir. Məhz bütün bu amillərə görə konfransın Naxçıvanda keçirilməsi bizim üçün mənəvi bir simvoldur. "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda konfransın təşkilində göstərdiyi böyük dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımızı bildiririk. Konfransın ideyası çox genişdir. Çünki ulu öndərin siyasi irsini biz gələcək nəsillərə ötürməliyik, çatdırmalıyıq, onu təbliğ etməliyik. Hər bir azərbaycanlı gənc bu ideyaları dərindən bilməlidir. Bildiyimiz kimi, biz ulu öndərin yolunun Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bugünkü uğurlara nail olmuşuq, torpaqlarımız işğaldan azad edilib, regionda söz haqqına sahibik. Torpaqlarımızın qaytarılması regionda böyük reallıqlar yaradıb, Azərbaycan artıq regionumuz üçün sülh gündəliyi təklif edib, Zəngəzur dəhlizinin açılması istiqamətində işlər gedir. Açılacaq yeni dəhliz, təbii ki, bütün kommunikasiya xətlərinin çəkilməsinə və Naxçıvanın quru yolla ölkəmizlə əlaqəsinə imkan verəcək ki, bu da qədim diyarın inkişafına daha da geniş şərait yaradacaq.

Onu da xüsusi qeyd edim ki, mən hər dəfə Naxçıvana gələndə burada çox müsbət dəyişikliklərin şahidi oluram. İnsanların əhvali-ruhiyyəsinin yüksək olduğunu görürəm. Hər yerdə təmizlik, qayda-qanun, səliqə-sahman diqqətimdən yayınmır. Hər gəlişimdə yeni yüksək faktlarla, abad, geniş yollarla qarşılaşıram. Bütün bunlar məni çox sevindirir. Naxçıvan Azərbaycanın tərkib hissəsi kimi çox sürətlə inkişaf edir. Muxtar respublika inkişaf etdikcə turizm imkanları da xeyli artır, insanlar daha çox üz tuturlar buraya. Əvvəllər daxili turizm daha çox yayılmışdısa, indi xaricdən də Naxçıvana üz tutanlar çoxdur. Bu gün gördüyümüz Duzdağ Fizioterapiya Mərkəzi dünyada məşhur bir sağlamlıq məkanıdır, unikal yerdir. Ümumiyyətlə, buraya səfərimiz çox yüksək səviyyədə keçdi, əhvali-ruhiyyəmiz əladır, ulu öndərimizin xatirəsini yad etdik. Fərəh hissi keçirirk ki, dahi siyasətçinin vaxtilə əsasını qoyduğu siyasi, iqtisadi proseslər bu gün öz bəhrəsini verir. Xüsusilə də Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət, onun quruculuq, həmrəyliyin, birliyin yaradılması istiqamətində apardığı fəaliyyət ölkəmizin bundan sonra da çiçəklənməsinə, qüdrətlənməsinə əsas yaradır. Arzu edirəm ki, Naxçıvanı hər dəfə daha da gözəl görək.

*Ardı 3-cü səhifədə*

*Leyla Abdullayeva – Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi:* – Xarici işlər naziri Ceyhun Bayramovun rəhbərliyi ilə nazirliyin rəhbər heyəti olaraq Naxçıvan şəhərinə səfərə gəldik. Səfərin əsas məqsədi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar dahi şəxsiyyətə doğma, əziz olan Vətənində onun xatirəsinin yad edilməsidir. Yüksək səviyyədə təşkilatçılıq baxımından seçilən, dərin elmi-nəzəri mahiyyət, mühüm siyasi dəyər kəsb edən konfransda çox hörmətli Ali Məclis Sədrinin, xarici işlər nazirinin çıxışlarını böyük maraqla dinlədik. Konfrans, həmçinin ulu öndərin özünün sevdiyi, dahi rəhbərə həsr olunmuş musiqi kompozisiyaları ilə davam etdi. Ümumiyyətlə, hesab edirik ki, bu gün ulu öndərin irsinin Azərbaycan xalqı, xüsusilə də gənc nəsil tərəfindən öyrənilməsi olduqca vacibdir. Bu irsin öyrənilməsi gələcək nəsillər üçün də böyük önəm kəsb edir. Bu mənəviyyat irsinin təbliği istiqamətində hər bir sahədə böyük diqqəti, önəmi görürük.



Onu da deyim ki, Naxçıvan şəhərinə səfərimiz kifayət qədər zəngin oldu. Səfər çərçivəsində keçirilən konfransda iştirakla yanaşı, şəhərin gəzməli-görməli yerlərinə qısa müddətdə də olsa, baş çəkmək imkanı qazandıq. Ümumiyyətlə, bu mənim və konfransda iştirak edən bir sıra nümayəndələrin Naxçıvana ilk səfəridir. Hesab edirəm ki, Azərbaycanın bu dilbər guşəsi həm gözəlliyi, həm tarixi abidələrlə zənginliyi, şəhərin özünün cəlbediciliyi, səliqəsi ilə ilk baxışdan adamı valeh edir. Öndə gələn ən diqqətçəkici məqam isə buradakı insanların qonaqpərvərliyidir. Ümumiyyətlə, Azərbaycanımız qonaqpərvərdir, ancaq Naxçıvanın özünəxas qonaqpərvərliyini xüsusilə qeyd etmək istərdim. Bir sözlə, bu səfəri çox yüksək qiymətləndiririk.

**✍ Nail ƏSGƏROV**

***İkinci Dünya müharibəsində faşizm üzərində qazanılan qələbədən 77 il ötür. 1941-1945-ci illər müharibəsi miqyasına, vurulan maddi zərərin həcminə və həlak olmuş insanların sayına görə bəşər tarixində baş vermiş müharibələrin ən ağırı, ən dəhşətlisidir. Milyonlarla insanın həlak olduğu, yaralandığı və əsir düşdüyü bu müharibədə Azərbaycan xalqının mərd oğul və qızları da şücaət göstərmiş, faşizm üzərində qazanılmış qələbədə böyük rol oynamışlar. Belə ki, müharibədə 600 mindən çox azərbaycanlı cəbhədə vuruşmuş, onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur. 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycandan 130 nəfər Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür.***

## Xalqımız 1941-1945-ci illər müharibəsində göstərdiyi qəhrəmanlığı 44 günlük Vətən müharibəsində bir daha nümayiş etdirdi

Müharibədə fədakarlıq göstərən azərbaycanlılardan təşkil edilmiş 416-cı "Taqanroq", 402-ci "Azərbaycan", 223-cü "Belqrad" və 77-ci "Simferopol" diviziyaları şərəfli döyüş yolu keçmiş, soydaşlarımızın, təxminən, yarısı ağır döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Müharibənin taleyində muxtar respublikamız da böyük rol oynamış, 402-ci diviziya Naxçıvanda formalaşdırılaraq cəbhəyə yola salınmışdır. Həmyerlilərimiz 223-cü diviziyanın tərkibində Macarıstan və keçmiş Yuqoslaviyanın faşistlərdən təmizlənməsində igidlik göstərmişlər. Qürurverici dir ki, 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmiş, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar.

Müharibənin başladığı gün – 1941-ci il iyunun 22-də Naxçıvan Muxtar Respublikasından 6492 nəfər orduya yollanmışdır. Ümumilikdə, 29 min 500 muxtar respublika sakini 1941-1945-ci illər müharibəsində iştirak etmişdir. Müharibəyə könüllü gedənlərdən yüzə yaxını qadınlar idi. Cəbhəyə yollanan naxçıvanlıların hər iki nəfərindən biri – 16 minə yaxın insan həlak olmuşdur. Üç həmyerlimiz – Abbas Quliyev, Nəcəfqulu Rəfiyev və Qəzənfər Əkbərov SSRİ-nin ən yüksək mükafatına – Sovet İttifaqı Qəhrəmanı adına, Rəhim Rəhimov "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. 600 nəfər isə müxtəlif orden və medallarla təltif edilmişdir. 102 nəfər "Şöhrət" ordeninin ayrı-ayrı dərəcələri, 105 nəfər birinci və ikinci dərəcəli "Böyük Vətən müharibəsi", 315 nəfər "Qırmızı Ulduz", 29 nəfər "Qırmızı Bayraq" ordenləri ilə təltif edilmişdir. Həmin illərdə azərbaycanlılar arxa cəbhədə də fəallıqları ilə seçilmişlər. Onlar ordunun ehtiyacını ödəmək üçün qüvvələri səfərbərliyə almış, gecəni gündüzə qataraq çalışmış, qələbənin qazanılmasına öz töhfələrini verməyə səy göstərmişlər.

Faşizm üzərində tarixi qələbənin qazanılmasında Azərbaycan nefti böyük rol oynamışdır. Belə ki, həmin illərdə Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtkü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Görkəmli akademik Yusif Məmmədəliyevin 1941-1945-ci illərdə neft kimyası sahəsində etdiyi ixtiralar isə, ümumilikdə, sovet Azərbaycanının o dövrdə qələbəsi idi. Ölkəmizin bütün sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi. Bununla yanaşı, cəbhəyə kömək məqsədilə digər imkanlardan da istifadə olunurdu. Həmin dövrdə təkcə Naxçıvan Muxtar Respublikasından müdafiə fonduna 12 kiloqram qızıl və gümüş, 180 milyon 89 min manat nağd pul, 70 min ton ət və digər ərzaq məhsulları, 160 min dəstdən çox isti paltar, 10 mindən artıq bağlama göndərilmişdir.

Vətən yolunda xidməti olan insanlardan heç vaxt qayğısını əsirgəməyən ümummilli lider Heydər Əliyev demişdir: ***"Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".*** Görkəmli dövlət xadiminin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 May respublikamızda "Qələbə Günü" kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülmüş, imtiyaz və statusları bərpa olunmuşdur.

İkinci Dünya müharibəsində igidlik göstərən müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişlər. ***"Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik... Onlara vaxtaşırı mənzillər, istirahət üçün sahələr, pul mükafatları ayrılır. Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. "Böyük Vətən müharibəsi iştirakçılarının "Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında" 2020-ci il 1 may tarixli Sərəncam da bu təbəqədən olan vətəndaşlara dövlət başçısının xüsusi diqqət və qayğısının növbəti göstəricisidir. Qələbə bayramı ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını almışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2022-ci il 19 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan şəxslərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamıdır.

Naxçıvan Muxtar Respublikasında da müharibə veteranlarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir, veteranlar sanatoriya və kurortlara göndərilir, minik avtomobilləri ilə təmin olunurlar. Muxtar respublikada 1941-1945-ci illərdə böyük şücaət və qəhrəmanlıq göstərmiş insanların keçdiyi şərəfli döyüş yolu gənc nəslin mənəvi, hərbi-vətənpərvərlik tərbiyəsində mühüm amilə çevrilmişdir. Hər il 9 May – Qələbə Günü muxtar respublikada geniş şəkildə qeyd olunur. 1941-1945-ci illər müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış abidələr önündə tədbirlərin keçirilməsi, müharibə veteranlarına hədiyyələrin verilməsi və digər tədbirlər bu kateqoriyadan olan insanlara göstərilən diqqətin əyani ifadəsidir.

1941-1945-ci illər müharibəsi iştirakçılarının şərəfli ömür yolu sonrakı nəsillər üçün də bir məktəbdir və bugünkü gəncliyin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır. Gənclərimizdə yüksək vətənpərvərlik ruhunu 2020-ci il sentyabr ayının 27-də başlanan İkinci Qarabağ müharibəsində bütün dünya bir daha gördü. Həmin gün Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutmasına cavab olaraq ordumuz əks-hücuma keçdi. Xalqımız 44 gün davam edən Vətən müharibəsində dəmir yumruq kimi birləşərək tarixi Qələbəyə imza atdı, əzəli torpaqlarımız işğaldan azad olundu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 3 dekabr tarixli Sərəncamında deyildiyi kimi: ***"Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu".***

İkinci Qarabağ müharibəsində iştirak edən hər bir azərbaycanlı gənc ata-baba əmanəti sayılan torpaqlarımızın erməni faşistlərinin əsarətindən azad olunmasında qəhrəmanlıq göstərdi, şəhadətə yüksəldi, qazi, qalib ordunun qalib əsgəri kimi evinə qayıtdı. Başqa sözlə, xalqımızın nümayəndələrinin 1941-1945-ci illər müharibəsində göstərdiyi qəhrəmanlığı mətin və əzmli gənclərdən ibarət müzəffər Azərbaycan Ordusu Vətən müharibəsində bir daha təkrar etdi. Bu həm də nəsillər arasında varislik ənənələrinin davamı, milli ruhun, həmrəyliyin təntənəsi idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın".***

Bu gün böyük qürur hissi keçiririk ki, 1941-1945-ci illərdə olduğu kimi, İkinci Qarabağ müharibəsində də naxçıvanlılar böyük şücaət göstərdilər, torpaqlarımız uğrunda canlarından keçdilər. Əcdadlarımızın uğrunda mübarizə apardığı ədalət, nəhayət, qələbə çaldı və Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdi. Təbii ki, bu, ümummilli liderimiz Heydər Əliyev ideyalarına, yoluna sədaqətin, illərlə aparılan mütərəqqi dövlət siyasətinin, həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində formalaşmış Vətənə sevgi, torpağa, milli ruha bağlılığın məntiqi nəticəsi idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Vətəni sevmək Vətən torpağını qorumaq və mənsub olduğu ölkəni inkişafa qovuşdurmaq deməkdir. Gənc nəsil bu dərsi mənimsəyərək özündən sonrakı nəsillərə ötürməli, nəsillər arasındakı varislik ənənələri davam etməlidir".***

**"Şərq qapısı"**

## "Ulu öndər Heydər Əliyevin ideyaları və müasir dövlət quruculuğunda gənclərin rolu" mövzusunda dəyirmi masa keçirilib



*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə "Ulu öndər Heydər Əliyevin ideyaları və müasir dövlət quruculuğunda gənclərin rolu" mövzusunda dəyirmi masa keçirilib.*

Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımov deyib ki, ümummilli lider Heydər Əliyev ölkəmizin ən yeni tarixində müstəqil Azərbaycan dövlətinin siyasi, iqtisadi, hüquqi əsaslarını yaradan və inkişafını təmin edən qüdrətli şəxsiyyətdir. Vurğulanıb ki, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında misilsiz xidmətləri xalqımızın tarixi yaddaşında daim yaşayacaq, uzaqgörən və müdrik siyasəti və strategiyası uğurlu gələcəyə gedən yollarımızı daim işıqlandıracaq.

Dəyirmi masanın moderatoru – Gənclər Birliyinin üzvü, Naxçıvan Dövlət Universitetinin müəllimi Əziz Qasımov iştirakçıları dəyirmi masanın gündəliyi ilə tanış etdikdən sonra müzakirələr başlanıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədr müavini Elvin Əliyev çıxışında deyib ki, ümummilli lider Heydər Əliyev siyasətinin bəhrələrindən biri də Azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişi, milli özünüdərkin təmin edilməsi, xalqın tarixi yaddaşının özünə qaytarılması, milli dövlətçilik ənənələrinin güclənməsi və real siyasi amilə çevrilməsi olmuşdur. Qüdrətli dövlət xadiminin zəngin irsi, şərəfli həyat və fəaliyyəti gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması üçün həmişə ən dəyərli mənbədir.

Sonra Gənclər Birliyinin üzvü, Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova, Naxçıvan Müəllimlər İnstitutunun Tələbə-Gənclər Təşkilatının sədri Ayxan Hüseynli, "Naxçıvan" Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Altay Cəfərli çıxış edərək bildiriblər ki, bu gün ölkəmizin tərəqqi meridianlarının mərkəzində məhz ulu öndərimiz Heydər Əliyevin ideyaları dayanır. Azərbaycanın indiki zənginliyi, intibahı məhz ümummilli liderimizin ideyalarının öz real təsdiqini tapması sayəsində mümkün olub. Bu dahi insanın ömür salnaməsini dönə-dönə səhifələmək, oxumaq, öyrənmək və oxuya-oxuya, öyrənə-öyrənə sevərək təbliğ etmək hamımızın borcudur.

Fəal gənclərin fikirləri ilə davam edən dəyirmi masada vurğulanıb ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi strategiya Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında uğurla davam və inkişaf etdirilir ki, bu da ölkəmizin tərəqqisinə böyük töhfə verir. Bu gün ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda gənclər üçün geniş imkanlar yaradılmışdır. Azərbaycanda savadlı, müasir dünyagörüşlü, vətənpərvər gənc kadrların formalaşdırılması, mühüm dövlət postlarına rəhbər vəzifəyə gətirilməsi kadr siyasətinin tərkib hissəsi kimi qəbul olunmaqdadır. Gənclər dövlət idarəçiliyində irəli çəkilir, mühüm vəzifələr onlara həvalə və etibar olunur.

Dəyirmi masa gənclərin fikirlərinin dinlənilməsi ilə davam edib.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Endokrinologiyanın aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransı keçirilib.*

## *"Endokrinologiyanın aktual problemləri"* mövzusunda respublika elmi-praktik konfransı



Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirliklərinin təşkilatçılığı ilə keçirilən konfransı xəstəxananın baş həkimi Zəbur Bağırov açaraq inkişaf edən dünya səhiyyə sisteminin müasir nailiyyətlərinin öyrənilməsində belə konfransların əhəmiyyətindən danışıb, növbəti tədbirin də həkimlərin bilik və bacarıqlarının artırılmasında faydalı olacağına əminliyini ifadə edib.

Azərbaycan Respublikası Endokrinoloji Mərkəzinin Poliklinika şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Nərminə Hüseynova "Şəkərli diabetin diaqnostikası və müalicəsinin idarə olunması", Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin baş həkim əvəzi Mətanət Səfərova "Şəkərli diabetin müalicəsində peroral preparatlar", Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinologiya şöbəsinin müdiri Aysel Dünyamalıyeva "İnsulin rezistentliyi" mövzularında məruzələr ediblər.

Konfransda qeyd olunub ki, şəkərli diabet endokrin sistemin ən geniş yayılmış xəstəliklərindən biridir, bu xəstəliklə mübarizə hazırda dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib. Odur ki, Azərbaycan Respublikasında şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyənləşdirən, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyən "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olunub. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı" təsdiq edilib.

Vurğulanıb ki, muxtar respublikamızda səhiyyə sisteminin inkişafı endokrinologiyada da mühüm irəliləyişlərə səbəb olub. Əvvəllər fəaliyyət göstərən endokrinoloji dispanserin bazasında Naxçıvan Muxtar Respublika Xəstəxanasında Endokrinologiya şöbəsinin yaradılması səhiyyə islahatlarının tərkib hissələrindən biridir. Burada müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. Muxtar respublikanın şəhər və rayonlarının səhiyyə müəssisələri ilə qarşılıqlı əlaqələr yaradılaraq şəkərli diabet xəstələrinin vahid reyestri təşkil edilib. Naxçıvan Muxtar Respublika Xəstəxanasının göz həkimləri ayrı-ayrı rayonlarda şəkərli diabet xəstəliyindən əziyyət çəkən xəstələrin göz dibinin müayinəsini aparır, lazımi məsləhət və təyinatlar verirlər.

Bildirilib ki, imtiyazlı xəstələr üçün 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Hazırda muxtar respublikada şəkərli diabet xəstələrinə şəkərölçmə cihazı, test çubuqları və dərmanlar pulsuz verilir. Endokrinologiya şöbəsi tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə diabet məktəblərinin təlim, məşğələ və treninqləri təşkil olunur.

Diqqətə çatdırılıb ki, müasir müalicə metodlarının öyrənilməsi və tətbiqi üçün yüksəkixtisaslı mütəxəssislərin iş təcrübəsindən istifadə edilir. Hər il Bakıdan gələn yüksəkixtisaslı həkimlər yerli həmkarları ilə birgə bölgələrdə konsultativ söhbətlər, səhiyyə maarifi işi aparır, rayonlarda bu qəbildən olan xəstələrə baxış keçirir, onlara tibbi məsləhətlər verirlər.

Konfransda müzakirələr aparılıb, endokrinologiyanın aktual problemlərinə aid suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Naxçıvanın turizm könüllüləri loqosu"nun təqdimatı keçirilib. Tədbirdə çıxış edən "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsin icraçı direktoru Cəbi Quliyev dövlətin gənclər siyasətindən danışıb.*

## Naxçıvanın turizm könüllüləri loqosunun təqdimatı keçirilib



Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin direktoru Əkbər Novruzov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada həyata keçirilən uğurlu sosial-iqtisadi islahatlar turizmi inkişaf edən sektora çevirib. Son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, tarixi və mədəni abidələrin bərpa olunması, müalicə mərkəzlərinin yenidən qurulması, yeni hotel və istirahət mərkəzlərinin tikilməsi, ən ucqar yaşayış məntəqələrində müasir standartlara uyğun istirahət, ticarət, xidmət və səhiyyə ocaqlarının istifadəyə verilməsi, avtomobil yollarının yenilənməsi turizmin inkişafına təkan verib, muxtar respublikaya gələn turistlərin sayını ilbəil artırıb.

Qeyd olunub ki, muxtar respublikada turizm sektorunun peşə və ixtisas səviyyəsi yüksək olan kadrlarla təminatı da diqqətdə saxlanılıb. Belə ki, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində Turizm işinin təşkili ixtisasları üzrə kadr hazırlığı aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən sözügedən ixtisasda təhsil alan tələbələr Turizm Departamentinə hamiliyə verilib. Tədris ili ərzində bu istiqamətdə tədbirlərin keçirilməsi diqqətdə saxlanılıb. Həmçinin bu ixtisas üzrə təhsil alan tələbələrin iştirakı ilə "Turizm könüllüsü" layihəsinə start verilib.

Sonra Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Turizmin inkişafı və təbliği sektorunun aparıcı məsləhətçisi Orxan Cəfərov könüllülərə "Naxçıvanın turizm könüllüləri loqosu"nu təqdim edərək loqonun üzərindəki simvollar barədə məlumat verib.

Tədbirin sonunda muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxa baxış olub, layihəyə yeni qoşulan turizm könüllülərinə könüllülük müqaviləsi bağlanıb.

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## Ötən şənbə günü də ekoloji tədbirlər mütəşəkkilliklə davam etdirilib



Muxtar respublikamızda həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsidir. May ayının 7-də keçirilən ekoloji tədbirlər zamanı Naxçıvan şəhərinin sakinləri, idarə, müəssisə və təşkilatların nümayəndələri fəallıq göstəriblər. Həmin gün ərazilərdə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma işləri görülüb, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb.

Şərurlular Sənaye məhəlləsinin ətrafında ağaclara aqrotexniki qulluq göstərib, abadlıq, təmizlik işləri görüblər. Həmin gün park və xiyabanların ətrafında, o cümlədən kənd mərkəzlərinin önündə alaq otları biçilib, bağlarda suvarma işləri görülüb.

Babəklilər Naxçıvan-Şahbuz magistral yolunun Xalxal kəndindən keçən hissəsində və Şıxmahmud kəndindəki yaşıllıqlara aqrotexniki qulluq göstərib, ağartma və suvarma işləri aparıb.

Ordubad rayonunda da mütəşəkkillik müşahidə olunub. Həmin gün Şəhriyar qəsəbə və Xanağa-Pəzməri yolunun kənarlarında, həmçinin Qazi massivində ağaclara aqrotexniki qulluq göstərilib, suvarma işləri aparılıb.

Culfa rayonunda da həmin tədbirlər davam etdirilib. Naxçıvan-Culfa-Ordubad magistral yolunun kənarları alaq otlarından təmizlənib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun Qabıllı kəndi hissəsindəki bağlarda yaşıllıqlara aqrotexniki qulluq göstərilib, budama və suvarma işləri aparılıb.

Şahbuzlular Sələsüz və Daylaq kəndlərindəki üzüm bağlarına aqrotexniki qulluq göstəriblər.

Sədərək rayonunda Dəmirçi-Kərimbəyli yolunun kənarlarında 150 söyüd ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib, suvarma işləri aparılıb.

Ötən həftə ekoloji tədbirlərdə 18 min 380 nəfər iştirak edib.

**Xəbərlər şöbəsi**

## "Heydər Əliyev kuboku"nun qalibi müəyyənləşib



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilmiş "Heydər Əliyev kuboku" uğrunda yeniyetmə (2007-2009-cu illər) və gənclər (2004-2006-cı illər) arasında kikboksinq üzrə Naxçıvan Muxtar Respublika turniri başa çatıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Kikboksinq Federasiyasının birgə təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin dəstəyi ilə keçirilən turnirdə 16 çəki dərəcəsində 85 idmançı iştirak edib.

Turnirin açılışından əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən gənclər və idman naziri Ramil Hacı bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə digər sahələr kimi, idmana da qayğı ilə yanaşmış, idmanın inkişafı dövlət siyasətinin üstün istiqamətlərindən birinə çevrilmiş, böyük idman kompleksləri, idman sağlamlıq mərkəzləri tikilmiş, meydançalar yaradılmış, onlardan səmərəli istifadə təmin edilmişdir.

Ramil Hacı deyib ki, bu gün Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikamızda müasir idman obyektləri, idmanın müxtəlif növləri üzrə idman federasiyalarının yaradılması gənclərin idmana olan marağını artırıb, istedadlı idmançıların yetişməsi təmin olunub.

İdmançıları bu bayram münasibətilə təbrik edən Ramil Hacı yaradılan şəraitə görə idman ictimaiyyəti adından muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Rəşad İsmayılov diqqətə çatdırıb ki, 13 aprel 2022-ci il tarixdən Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası Daxili İşlər Nazirliyinin himayəsinə verilib. 2018-ci ildən bu ad altında fəaliyyət göstərən federasiya müəyyən inkişaf yolu keçib, beynəlxalq yarışlarda, turnirlərdə uğurlara imza atıb. Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan bayram tədbirləri ərəfəsində təşkil edilən yarışlardan biri də kikboksinq üzrə muxtar respublika turniridir.

Nazir bildirib ki, bu gün muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində idmançıların idmanla məşğul olmaları üçün hərtərəfli şərait yaradılıb. İdman obyektləri və infrastrukturu, olimpiya kompleksləri, idman qurğuları, o cümlədən ən ucqar dağ kəndlərində inşa edilən məktəblərdə müasirtipli idman zalları yeniyetmə və gənc idmançıların istifadəsinə verilib. İdman siyasəti ölkəmizin əsas istiqamətlərindən biri, idmanın inkişafı dövlət siyasətinin əsas prioritetidir.

Rəşad İsmayılov vurğulayıb ki, bu gün ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda idman sahəsində də böyük uğurlar, nailiyyətlər qazanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə qədim diyarımız Naxçıvanda da idmanın bütün növlərinin inkişaf etdirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun ifadəsidir ki, muxtar respublikanın bütün rayonlarında idmançıların idmanla məşğul olmaları üçün hərtərəfli şərait yaradılıb. İdman gənclərimizin sağlamlığına xidmət edir, çünki sağlam bədəndə sağlam ruh olar. Gənclərimiz zərərli vərdişlərdən uzaq durmalı, idmanla məşğul olmalı, dövlətinə, millətinə,Vətəninə faydalı fərd kimi formalaşmalıdır. Bu istiqamətdə himayəçi olduğumuz kikboksinq idman növünün inkişafı üçün Daxili İşlər Nazirliyi əlindən gələni əsirgəməyəcək.

İdmançılara uğurlar arzulayan Rəşad İsmayılov yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev keçirilən turnir barədə məlumat verib, idmançıları təbrik edib, yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Sonra final görüşlərinə start verilib. Yeniyetmələrin turnirində Elşad Cəlilov (34 kiloqram), İsa Yaqubov (37 kiloqram), Oğuz Məmmədli (42 kiloqram), Uğur Əliyev (47 kiloqram), Məhəmməd Qasımov (52 kiloqram), Ələkbər Tağıyev (63 kiloqram) və Zeynəlabdin Musayev (69+ kiloqram) qalib adını qazanıblar.

Gənclərin mübarizəsində Tuncay Qasımov (48 kiloqram), Şəmsəddin Əliyev (52 kiloqram), Mehman Abbasov (57 kiloqram), Səhət Əsədov (63 kiloqram), Yaraddin Cəfərov (69 kiloqram) və Qənbər Nağıyev (69+ kiloqram) rəqiblərindən güclü olublar.

Qızlar arasında isə Fidan Rzayeva (47 kiloqram) və Röya Abdullayeva (52 kiloqram) turnirin baş mükafatını qazanıblar.

Komanda yarışında Turan Döyüş Klubu "Heydər Əliyev kuboku"nu başı üzərinə qaldırıb.

Sonda qalib idmançılar mükafatlandırılıb.

Mükafatları gənclər və idman naziri Ramil Hacı, daxili işlər naziri Rəşad İsmayılov və Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev təqdim ediblər.

## Birincilikdə qalib komanda məlum olub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan karate üzrə "Heydər Əliyev kuboku" uğrunda Naxçıvan Muxtar Respublika açıq birinciliyinə yekun vurulub.Turnirin açılış mərasimində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının üzvlərinin və karate idman klublarının idmançılarının nümunəvi çıxışları olub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi yarışda yerli idmançılarla yanaşı, Bakı və Sumqayıt idmançıları da mübarizə aparıb. 250-dən çox idmançı müxtəlif yaş qruplarında 35 çəki dərəcəsində tatami üzərinə çıxıb.

Olimpiya sistemi üzrə keçirilən yarışın yekun nəticəsinə əsasən "Naxçıvan-1" komandası qalib adını qazanıb. "Naxçıvan-2" komandası ikinci, "Sumqayıt" komandası isə birinciliyi üçüncü yerdə başa vurublar.

Sonda qaliblər diplom, medal və kubokla təltif ediliblər. Mükafatları Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov, Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev təqdim ediblər.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 384